**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ KOLLEGİYASININ**

**Q Ə R A R I**

**№ Q66-001-12**

**Bakı şəhəri** **30 noyabr 2012**

**"Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə**

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə,

**KOLLEGİYA QƏRARA ALIR:**

1. "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).

2. Qərar qəbul edildiyi gündən 3 gün müddətində "Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri"nə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə göndərilsin.

3. Qərar respublika daxili işlər orqanlarında elan edilsin.

**Kollegiyanın sədri**
**general-polkovnik** **Ramil Usubov**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kollegiyasının 30 noyabr 2012-ci il tarixli Q66-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir

**Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu.

**1.2. Elektron xidmətin məzmunu:** bu xidmət hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və digər birləşmələrdən başqa) və mühərrikinin işçi həcmi 50 kub sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrinə, onların qoşqularına və yarımqoşqularına texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu qaydalarını müəyyən edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

**1.3.1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsi;

**1.3.2.** "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi;

**1.3.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamə";

**1.3.4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 2.7-ci bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polis İdarəsi (bundan sonra-DİN BDYPİ).

**1.5. Elektron xidmətin digər icraçıları:** yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** qismən.

**1.7. Elektron xidmətin icra müddəti:** bir iş günü ərzində

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** saz nəqliyyat vasitələrinə texniki baxış talonunun verilməsi.

**2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi**

**2.1. Elektron xidmətin növü:** interaktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişli.

**2.2.1. xidmət üzrə ödənişin hüquqi əsası:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsi və VII hissənin 4-cü bəndi;

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.65.1-ci maddəsinə əsasən nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə avtonəqliyyat vasitələri üçün 20 manat məbləğində, motonəqliyyat vasitələri, qoşqular, yarımqoşqular üçün 10 manat məbləğində dövlət rüsumu ödənilir;[1]

Həmin Qanunun 18.65.2-ci maddəsinə əsasən nəqliyyat vasitələrinin texniki uçot göstəricilərinə dəyişikliklər edilməsi zamanı və ya nəqliyyat vasitəsi alıcısının tələbi ilə nəqliyyat vasitələrinə texniki baxış keçirilməsinə görə avtonəqliyyat vasitələri üçün - 20 manat, motonəqliyyat vasitələri, qoşqular, yarımqoşqular üçün 10 manat məbləğində dövlət rüsumu ödənilir.[2]

*Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün* dövlət ~~vergi və~~ rüsumları 2 nömrəli əlavəyə uyğun olaraq "*Dövlət xəzinədarlığı orqanlarında vergi və digər büdcə ödənişləri köçürüləcək hesablar*" üzrə ödənilir.[3]

DİN ~~BDYPİ-nin bank rekvizitləri:~~[4]

~~Baş Dövlət Yol Polisi İdarəsi VÖEN 9900063851~~

~~1 saylı Xəzinədarlıq İdarəsi~~

~~VÖEN: 1700986181~~

~~ABB Mərkəzi filialı~~

~~VÖEN 9900001881~~

~~kod: 805722~~

~~m/h 0137010002944~~

~~S.W.İ.F.T Bik: İBAZAZ2X~~

~~H/h 33205019449328518204~~

~~Azərbaycan Respublikası Vergi Məcəlləsinin 211.1.2-ci maddəsinə görə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası~~

~~(traktorlar, kombayn və yığım maşınları, pambıqyığan maşınlar) və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri istisna olmaqla) illik yol vergisini həmin avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə aşağıdakı dərəcələrlə ödəyirlər:~~[5]

| ~~Vergitutma obyektinin adı~~[6] | ~~Yol vergisinin dərəcəsi~~ |
|---|---|
| ~~1~~ | ~~2~~ |
| ~~Minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri:~~ | |
| ~~– mühərrikin həcmi 2000 kub santimetrədək olduqda~~ | ~~20 manat~~ |
| ~~– mühərrikin həcmi 2000 kub santimetrdən 3000 kub santimetrədək olduqda~~ | ~~20 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə -0,02 manat~~ |
| ~~– mühərrikin həcmi 3000 kub santimetrdən 4000 kub santimetrədək olduqda~~ | ~~40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə -0,03 manat,~~ |
| ~~– mühərrikin həcmi 4000 kub santimetrdən 5000 kub santimetrədək olduqda~~ | ~~70 manat + mühərrikin həcminin 4000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə -0,04 manat,~~ |
| ~~– mühərrikin həcmi 5000 kub santimetrdən çox olduqda~~ | ~~110 manat + mühərrikin həcminin 5000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə -0,05 manat,~~ |

**ödəmə üsulları:** bank, poçt, plastik kart, elektron ödəmə sistemləri və ya internet vasitəsi ilə.[7]

**2.3. Elektron xidmətin istifadəçiləri:** hüquqi və fiziki şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**

http://mia.gov.az/?/az/content/29773/

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- http://mia.gov.az/?/az/content/29773/
- e-poçt: info@mia.gov.az, info@dyp.gov.az
- telefon: +994 12 590-81-25, +994 12 590-81-35

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

**2.6.1.** Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün istifadəçi tərəfindən ərizəyə (Əlavə №1) aşağıdakılar əlavə olunur:

1) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin nömrəsi və verilmə tarixi;

2) nəqliyyat vasitəsini idarə etməyə hüquq verən sənədin nömrəsi və verilmə tarixi.

Xarici ölkələrdə verilmiş nəqliyyat vasitəsini idarə etməyə hüquq verən sənədin skan edilmiş surəti;

3) *"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun ~~və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş məbləğdə yol vergisinin~~ ödənilməsi barədə sənədin, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarışın, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədinin surəti.*[8]

*4) avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortasının "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilməsini təsdiq edən icbari sığorta şəhadətnaməsinin skan edilmiş surəti.*[9]

Qeyd edilən sənədlərdən başqa digər sənədlərin tələb edilməsi qadağandır.

**3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar**

**3.1.** Nəqliyyat vasitələrinin *qanunla müəyyən edilmiş hallarda* dövlət texniki baxışının keçirilməsi üzrə elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.[10]

**3.2. Elektron xidmətlər üçün sorğu:**

**3.2.1. sorğunun formalaşdırılması:** istifadəçi ərizə formasını (Əlavə №1) elektron xidmətin təqdim edildiyi DİN BDYPİ-nın internet ünvanından yükləyərək doldurur və texniki baxışın keçirilməsi vaxtını seçərək bu reqlamentin 2.6-cı bəndində göstərilənlərlə birlikdə həmin elektron ünvana göndərir.

**3.2.2. sorğunun qəbulu:** sorğu internet səhifəsinə daxil olduğu gün qeydiyyata alınır və sorğunun qəbul edilməsi ilə bağlı istifadəçinin elektron poçtuna dərhal bildiriş göndərilir.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. sorğunun yerinə yetirilməsindən imtina halları:** istifadəçi tərəfindən təqdim olunmuş sənədlərdə çatışmazlıqlar (ərizə formasının tam doldurulmaması, bu reqlamentin 2.6-ci bəndində göstərilən sənədlərdən birinin və ya bir neçəsinin ərizəyə əlavə olunmaması) aşkar edildikdə sorğunun yerinə yetirilməsindən imtina edilir **və imtinanın səbəbləri barədə ərizəçinin elektron poçtuna dərhal məlumat göndərilir.**

Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışı ilə bağlı DİN BDYPİ-nin elektron xidmətlər bölməsinə yenidən müraciət etməsinə mane olmur.

**3.3.2. sorğunun qəbulu:** istifadəçi tərəfindən təqdim edilmiş sənədlər bu reqlamentin 2.6-cı bəndində göstərilənlərə uyğun olduqda sorğu qəbul olunur.

**3.4. Sorğunun icrası:**

**3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında* kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq dərhal qeydiyyata alınır və baxılması üçün DİN BDYPİ-nin Müayinə mərkəzinə və ya ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqələrinə elektron formada (internet vasitəsi ilə) ünvanlanır.[11]

Sorğunun icrası üzrə DİN BDYPİ-nin Müayinə mərkəzi və ya ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqəsinin rəhbəri bilavasitə məsuliyyət daşıyır;

**3.4.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** sənədlər DİN BDYPİ-nin ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqələrində baxıldığı zaman aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə, onların 5 gün müddətində aradan qaldırılması barədə istifadəçiyə elektron poçtla dərhal bildiriş göndərilir.

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sorğuya baxılması davam edir və nəqliyyat vasitəsinin dövlət texniki baxışının keçirilməsi məqsədi ilə DİN BDYPİ-nin Müayinə mərkəzi və ya ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqələri nəqliyyat vasitəsinin təqdim edilməsi tarixi, vaxtı və yeri barədə istifadəçinin elektron poçt ünvanına məlumat göndərir.

Nəqliyyat vasitəsi DİN BDYPİ-nin Müayinə mərkəzi və ya ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqələri tərəfindən müəyyən edilmiş tarixdə və vaxtda (növbəsiz) müayinədən keçirilməlidir. Nəqliyyat vasitəsi müayinəyə təqdim edildikdən sonra DİN BDYPİ-nin Müayinə mərkəzi və ya ərazi üzrə imtahan-qeydiyyat və texniki baxış məntəqəsində "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə və həmin Qanunun 1 nömrəli Əlavəsinin tələblərinə uyğun olaraq nəqliyyat vasitəsinin tipinin, modelinin, dövlət qeydiyyat nişanının, eləcə də şassi (rama), ban və mühərrik nömrələrinin, rənginin nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilən qeydlərə uyğunluğu yoxlanılır, axtarışda olan nəqliyyat vasitələrinin və qeydiyyat sənədlərinin siyahısı ilə tutuşdurulur.[12]

Xüsusi təyinatlı və əməliyyat xidmətinin nəqliyyat vasitələrinə dövlət texniki baxışı keçirilərkən xüsusi işıq və səs siqnallarının mövcud olması, sazlığı və onların

quraşdırılmasının qanuniliyi, həmçinin nəqliyyat vasitələrinin rəng qrafikasının dövlət standartının tələblərinə uyğun olması, qoşquların (yarımqoşquların) texniki vəziyyəti isə avtomobilə qoşulmuş vəziyyətdə yoxlanılır.

Nəqliyyat vasitəsinə texniki baxış keçirildiyi zaman "Yol hərəkəti haqqında" Qanuna 1 nömrəli əlavə ilə müəyyən olunmuş nasazlıqlar aşkar edildikdə, həmin nasazlıqlar dəqiq göstərilərək (normalar, dərəcələr və s.) iki nüsxədə akt tərtib olunur, aktın bir nüsxəsi nəqliyyat vasitəsini təqdim edən şəxsə verilir.

Dövlət qeydiyyat şəhadətnaməsində, nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədlərdə saxtakarlıq əlamətləri, mühərrik, ban və şassi nömrələrinin nəqliyyat vasitələrinin qeydiyyat sənədlərindəki yazılarla uyğun gəlməməsi, aqreqat və qovşaqların nömrələrinin silinməsi, yaxud onlara saxta üsulla nömrələrin vurulması halları aşkar edildikdə sənədlər götürülür və nəqliyyat vasitələri müəyyən edilmiş qaydada saxlanılır. Aşkar edilmiş faktı sənədləşdirmək üçün şahidlərin iştirakı ilə akt tərtib edilir, sürücüdən (nəqliyyat vasitəsinin sahibindən) izahat alınır. Həmin faktla bağlı araşdırılmış ilkin materiallar baxılmaq üçün müvafiq təhqiqat orqanına göndərilir.

**3.4.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:**

yoxdur;

**3.4.4. inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

Texniki baxış zamanı nəqliyyat vasitəsində hər hansı nasazlıq aşkar edilmədikdə həmin gün, nəqliyyat vasitəsinin istismarının qadağan edilməsinə səbəb olan hər hansı nasazlıq aşkar edildikdə isə, həmin nasazlıqların aradan qaldırılması barədə təminatlı texniki xidmət göstərən texniki təmir sahəsinin və ya stansiyasının sənədi (əgər belə xidmət həmin stansiya və ya sahə tərəfindən göstərilmişdirsə) təqdim olunduğu gün texniki baxış talonu verilir.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** elektron xidmətin yerinə yetirilməsinə nəzarəti DİN BDYPİ həyata keçirir.

**3.5.1. nəzarət forması:** kargüzarlıq;

Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi.

**3.5.2. nəzarət qaydası:** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında* kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.[13]

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** yaranan mübahisələrlə bağlı istifadəçi ona elektron xidməti göstərmiş DİN BDYPİ-nin Müayinə mərkəzinin və ya

ərazi üzrə qeydiyyat-imtahan və texniki baxış məntəqəsinin rəhbərinin tabe olduğu yuxarı orqana inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.

**3.6.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

**3.6.3. şikayətə baxılma müddəti:** şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

Əlavə №1

Azərbaycan Respublikası
DİN BDYPİ-nin
rəisi ______________________

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

__________________________________________________ tərəfindən
*(hüquqi şəxsin adı, fiziki şəxsin adı, soyadı, atasının adı)*

ünvan ______________________________________________

Əlaqə vasitələri:
telefon, faks,
e-poçt ünvanı ______________________________________

ƏRİZƏ

______________________________________________________
____________________________ markalı, ______________ qeydiyyat nişanlı
______________________________________________________
______________________________________________________
______________________________________________________
______________________________________________________
______________________________________________________

**Hüquqi şəxsin rəhbərinin və ya fiziki şəxsin imzası** ______________________
(soyadı,a,a)

"___"_______"______

**"Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"ə 2 nömrəli əlavə**[14]

## DÖVLƏT XƏZiNƏDARLIĞI ORQANLARINDA VERGİ VƏ DİGƏR BÜDCƏ ÖDƏNİŞLƏRİ KÖÇÜRÜLƏCƏK HESABLAR

| | Xəzinədarlıq orqanın | | | Bankın | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **S N** | **Adı** | **VÖEN-i** | **Hesablaşma hesabı** | **Adı** | **VÖEN-i** | **Kodu** | **Müxbir hesabı** | **SWIFT** |
| | **Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə** | | | | | | | |
| 1 | Mərkəzi Xəzinədarlıq | 0200003621 | AZ21NABZ12360100000000005 944 | Mərkəzi Bank Naxçıvan MR İdarəsi | 0200087741 | 502906 | AZ88NABZ01451700000000012944 | BIK NABZAZ2C |
| 2 | Naxçıvan şəhər maliyyə şöbəsi | 0200004671 | AZ47AIIB320510194431002015 00 | Kapital Bankın Naxçıvan MR Baş idarəsi | 0200001911 | 200015 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 3 | Babək YXO | 0300003761 | AZ09AIIB320510194430602011 30 | Kapital Bankın Babək filialı | 0200001911 | 200305 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 4 | Şərur YXO | 0700025021 | AZ60AIIB320510194433602011 33 | Kapital Bankın Şərur filialı | 0200001911 | 200338 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 5 | Ordubad YXO | 0400003361 | AZ26AIIB320510194431602011 31 | Kapital Bankın Ordubad filialı | 0200001911 | 200316 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 6 | Culfa YXO | 0600012141 | AZ43AIIB320510194432602011 32 | Kapital Bankın Culfa filialı | 0200001911 | 200327 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 7 | Şahbuz YXO | 0800005821 | AZ77AIIB320510194434602011 34 | Kapital Bankın Şahbuz filialı | 0200001911 | 200349 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 8 | Sədərək YXO | 0500009191 | AZ94AIIB320510194435602011 35 | Kapital Bankın Sədərək filialı | 0200001911 | 200350 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| 9 | Kəngərli YXO | 0900000241 | AZ42AIIB320510194489602011 89 | Kapital Bankın Kəngərli filialı | 0200001911 | 200899 | AZ37NABZ01350100000000001944 | BIK AIIBAZ 2X |
| | **Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti və Xüsusi Rejimli Vergi Departamenti** | | | | | | | |
| 10 | Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti | 1403006271 | AZ17CTRE00000000000002117 131 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **2 saylı ƏVD üzrə** | | | | | | | |
| 11 | Sumqayıt YXO | 2900380561 | AZ34CTRE00000000000002116 631 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 12 | Abşeron YXO | 3100030961 | AZ66CTRE00000000000002116 831 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 13 | Xızı YXO | 7800010811 | AZ94A1IB32051019442400201124 | Kapital Bankın Xızı filialı | 9900003611 | 200242 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 14 | Siyəzən YXO | 7100009511 | AZ39AIIB32051019445500201155 | Kapital Bankın Siyəzən filialı | 9900003611 | 200554 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 15 | Qubadlı YXO | 4600022691 | AZ85TU RA36015002260700102 944 | Turanbank ASC-nin Sumqayıt filialı | 1300016391 | 508212 | AZ26NABZ01350100000000027944 | TURAAZ22 |
| 16 | Zəngilan YXO | 5200019771 | AZ05IBAZ36010019449759910324 | ABB-nin Binəqədi filialı 3 saylı Xırdalan şöbəsi | 9900001881 | 805982 | AZ03NABZ01350100000000002944 | IBAZAZ2X |
| 17 | Şuşa YXO | 8600007501 | AZ68IBAZ36010019449759902206 | ABB-nin Nərimanov filialı | 9900001881 | 805540 | AZ03NABZ01350100000000002944 | IBAZAZ2X |
| | **3 saylı ƏVİ üzrə** | | | | | | | |
| 18 | Quba YXO | 4500248461 | AZ37AIIB32051019446500246165 | Kapital Bankın Quba filialı | 9900003611 | 200651 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 19 | Qusar YXO | 4700077491 | AZ17AIIB32051019444800201148 | Kapital Bankın Qusar filialı | 9900003611 | 200480 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 20 | Şabran YXO | 5000051201 | AZ95IBAZ36010019449580043253 | ABB-nin Şabran filialı | 9900001881 | 805465 | AZ03NABZ01350100000000002944 | IBAZAZ2X |
| 21 | Xaçmaz YXO | 7700127931 | AZ05CTRE00000000000002114 631 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |
| | **4 saylı ƏVİ üzrə** | | | | | | | |
| 22 | Şamaxı YXO | 8400082981 | AZ89CTRE00000000000002112 731 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 23 | Ağsu YXO | 3500052631 | AZ22AIIB32051019445400201154 | Kapital Bankın Ağsu filialı | 9900003611 | 200543 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 24 | Qobustan YXO | 4800016471 | AZ37AIIB32051019447200201172 | Kapital Bankın Qobustan filialı | 9900003611 | 200725 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **5 saylı ƏVİ üzrə** | | | | | | | |
| 25 | Şirvan YXO | 2100090341 | AZ40CTRE00000000000002113 031 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 26 | Neftçala YXO | 6500017871 | AZ95AIIB32051019446400201164 | Kapital Bankın Neftçala filialı | 9900003611 | 200640 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 27 | Saatlı YXO | 6700050671 | AZ86CTRE00000000000002114 531 | Dövlət Xəzinədarlığı | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | Agentliyi | | | | |
| 28 | Sabirabad YXO | 6800086231 | AZ46AIIB320510194444002011 44 | Kapital Bankın Sabirabad filialı | 9900003611 | 200446 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 29 | Salyan YXO | 7000035491 | AZ12AIIB320510294443002011 43 | Kapital Bankın Salyan filialı | 9900003611 | 200435 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 30 | Hacıqabul YXO | 8100050691 | AZ78AIIB320510194463002011 63 | Kapital Bankın Hacıqabul filialı | 9900003611 | 200639 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 31 | Cəbrayıl YXO | 8200028541 | AZ18AIIB320510194488002011 88 | Kapital Bankın Cəbrayıl filialı | 9900003611 | 200888 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **6 saylı ƏVİ üzrə** | | | | | | | |
| 32 | Lənkəran YXO | 2600129371 | AZ74CTRE00000000000002112 031 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 33 | Astara YXO | 3700004621 | AZ08AIIB320510194476002011 76 | Kapital Bankın Astara filialı | 9900003611 | 200769 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 34 | Biləsuvar YXO | 4100023841 | AZ73CTRE00000000000002112 631 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 35 | Yardımlı YXO | 5600023671 | AZ88AIIB320510194475002011 75 | Kapital Bankın Yardımlı filialı | 9900003611 | 200758 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 36 | Lerik YXO | 6300016371 | AZ71AIIB320510194474002011 74 | Kapital Bankın Lerik filialı | 9900003611 | 200747 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 37 | Masallı YXO | 6400037221 | AZ44AIIB320510194461002011 61 | Kapital Bankın Masallı filialı | 9900003611 | 200617 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 38 | Cəlilabad YXO | 8300054691 | AZ57CTRE00000000000002112 531 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| | **8 saylı ƏVİ üzrə** | | | | | | | |
| 39 | Beyləqan YXO | 3900204011 | AZ22CTRE00000000000002114 131 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 40 | Ağcabədi YXO | 3400050221 | AZ36CTRE00000000000002115 431 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 41 | İmişli YXO | 5500116521 | AZ49AIIB320510194467002011 67 | Kapital Bankın İmişli filialı | 9900003611 | 200673 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 42 | Füzuli YXO | 7500063841 | AZ98AIIB320510194487002011 87 | Kapital Bankın Füzuli filialı | 9900003611 | 200877 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 43 | Laçın YXO | 6200023951 | AZ86AIIB320510194492002011 92 | Kapital Bankın Laçın filialı | 9900003611 | 200929 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 44 | Xocavənd YXO | 7900013321 | AZ41AIIB32051019444000202140 | Kapital Bankın Beyləqan filialı | 9900003611 | 200402 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **9 saylı ƏVİ üzrə** | | | | | | | |
| 45 | Göyçay YXO | 6000130721 | AZ59CTRE0000000000002111 331 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |
| 46 | Ağdaş YXO | 3300102051 | AZ27AIIB32051019446000201160 | Kapital Bankın Ağdaş filialı | 9900003611 | 200606 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 47 | Zərdab YXO | 5300060531 | AZ80AIIB32051019444600201146 | Kapital Bankın Zərdab filialı | 9900003611 | 200468 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 48 | Kürdəmir YXO | 5700086441 | AZ26CTRE0000000000002111 731 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 49 | Ucar YXO | 7400009951 | AZ25AIIB32051019447700201177 | Kapital Bankın Ucar filialı | 9900003611 | 200770 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **10 saylı ƏVİ üzrə** | | | | | | | |
| 50 | Qəbələ YXO | 4400108761 | AZ42CTRE0000000000002111 831 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZO1360100000000003944 | CTREAZ 22 |
| 51 | Ismayıllı YXO | 5400017821 | AZ10CTRE0000000000002111 631 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 52 | Oğuz YXO | 6600067641 | AZ66AIIB32051019446800201168 | Kapital Bankın Oğuz filialı | 9900003611 | 200684 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **11 saylı ƏVD üzrə** | | | | | | | |
| 53 | Yevlax YXO | 2200103611 | AZ69CTRE0000000000002115 031 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 54 | Mingəçevir YXO | 2700140271 | AZ82AIIB32051019442900201129 | Kapital Bankın Mingəçevir filialı | 9900003611 | 200297 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 55 | Şəki YXO | 3000104011 | AZ03AIIB32051019447000201170 | Kapital Bankın Şəki filialı | 9900003611 | 200703 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 56 | Bərdə YXO | 4000183681 | AZ85CTRE0000000000002115 131 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ 22 |
| 57 | Tər-Tər YXO | 7200062591 | AZ63AIIB32051019444500201145 | Kapital Bankın Tərtər filialı | 9900003611 | 200457 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 58 | Ağdam YXO | 3200025931 | AZ81AIIB32051019448600201186 | Kapital Bankın Ağdam filialı | 9900003611 | 200866 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 59 | Xocalı YXO | 8000001601 | AZ95AIIB32051029445000921150 | Kapital Bankın Naftalan filialı | 9900003611 | 200565 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **12 saylı ƏVD üzrə** | | | | | | | |
| 60 | Gəncə YXO | 2300284441 | AZ44CTRE00000000000002110 631 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |
| 61 | Naftalan YXO | 2800017031 | AZ56AIIB320510194456002011 56 | Kapital Bankın Naftalan filialı | 9900003611 | 200565 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 62 | Daşkəsən YXO | 4900015561 | AZ47AIIB320510194484002011 84 | Kapital Bankın Daşkəsən filialı | 9900003611 | 200844 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 63 | Goranboy YXO | 6100026981 | AZ51AIIB320510194450002011 50 | Kapital Bankın Goranboy filialı | 9900003611 | 200509 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 64 | Samux YXO | 6900047491 | AZ64AIIB320510194485002011 85 | Kapital Bankın Samux filialı | 9900003611 | 200855 | AZ37NABZ01350100000000001944 | AIIBAZ2X |
| 65 | Göygöl YXO | 7600031051 | AZ30AIIB320510194483002011 83 | Kapital Bankın Xanlar filialı | 9900003611 | 200833 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 66 | Kəlbəcər YXO | 5800005801 | AZ65AIIB320510194428002011 28 | Kapital Bankın Kəpəz filialı | 9900003611 | 200286 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| | **13 saylı ƏVİ üzrə** | | | | | | | |
| 67 | Zaqatala YXO | 5100115391 | AZ77CTRE00000000000002110 231 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |
| 68 | Qax YXO | 4300088051 | AZ20AIIB320510194471002011 71 | Kapital Bankın Qax filialı | 9900003611 | 200714 | AZ37NABZ01350100000000001944 | AII BAZ 2X |
| 69 | Balakən YXO | 3800063541 | AZ83AIIB320510194469002011 69 | Kapital Bankın Balakən filialı | 9900003611 | 200695 | AZ37NABZ01350100000000001944 | AII BAZ 2X |
| | **14 saylı ƏVİ üzrə** | | | | | | | |
| 70 | Şəmkir YXO | 8500155391 | AZ97AIIB320510194447002011 47 | Kapital Bankın Şəmkir filialı | 9900003611 | 200479 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 71 | Ağstafa YXO | 3600068011 | AZ85AIIB320510194452002011 52 | Kapital Bankın Ağstafa filialı | 9900003611 | 200521 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 72 | Qazax YXO | 4200117891 | AZ14AIIB320510194436602011 36 | Kapital Bankın Qazax filialı | 9900003611 | 200361 | AZ37NABZ01350100000000001944 | AIIBAZ 2X |
| 73 | Gədəbəy YXO | 5900063931 | AZ87CTRE00000000000002113 931 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |
| 74 | Tovuz YXO | 7300102661 | AZ23CTRE00000000000002113 531 | Dövlət Xəzinədarlığı Agentliyi | 1401555071 | 210005 | AZ41NABZ01360100000000003944 | CTREAZ22 |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 3 aprel 2013-cü il tarixli **Q9-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qərarı
2. 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı
3. 29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı
4. 18 mart 2015-ci il tarixli **Q8-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı
5. 1 iyul 2015-ci il tarixli **Q16-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı
6. 9 sentyabr 2015-ci il tarixli **Q30-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı
7. 7 dekabr 2015-ci il tarixli **Q67-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"nin 2.2.1-ci yarımbəndin üçüncü abzasında "**10**" rəqəmi "**20**" rəqəmi ilə, "**5**" rəqəmi "**10**" rəqəmi ilə əvəz edilmişdir.

29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.2.1-ci yarımbəndin 3-cü abzasında "illik texniki baxışdan" sözləri "qanunla müəyyən edilmiş hallarda texniki baxışdan" sözləri ilə əvəz edilmişdir.

[2] 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"nin 2.2.1-ci yarımbəndin dördüncü abzasında "**10**" rəqəmi "**20**" rəqəmi ilə, "**5**" rəqəmi "**10**" rəqəmi ilə əvəz edilmişdir.

[3] 18 mart 2015-ci il tarixli **Q8-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.2.1-ci yarımbəndin beşinci abzasından birinci halda "**vergi və**" sözləri çıxarılmışdır.

9 sentyabr 2015-ci il tarixli **Q30-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.2.1-ci yarımbəndin beşinci abzasında "**Dövlət xəzinədarlıq orqanlarında olan vergi və rüsumların köçürülməli olduğu xəzinə hesablarının rekvizitləri haqqında Məlumat**" sözləri "**Dövlət xəzinədarlığı orqanlarında vergi və digər büdcə ödənişləri köçürüləcək hesablar**" sözləri ilə əvəz olunmuşdur.

[4] 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"nin 2.2.1 yarımbəndin beşinci – on dördüncü abzasları ləğv edilmişdir, yeni məzmunda beşinci abzas əlavə edilmişdir.

[5] 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"nin 2.2.1-ci yarımbəndin on beşinci abzasından "**və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri**" sözləri çıxarılmışdır.

18 mart 2015-ci il tarixli **Q8-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.2.1-ci yarımbəndin on altıncı abzası və illik yol vergisinin dərəcələrini nəzərdə tutan cədvəl ləğv

olunmuşdur.

[6] 15 iyul 2013-cü il tarixli **Q21-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"nin 2.2.1-ci yarımbəndin on altıncı və on yeddinci abzasları yeni məzmunda verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Minik avtomobilləri: mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda mühərrikin həcminin hər kubsantimetrinə görə — 0,01 manat, mühərrikin həcmi 2000 kubsantimetrdən çox olduqda 20 manat + mühərrikin həcminin 2000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə — 0,02 manat;~~

~~Avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri: Mühərrikin həcminin hər kubsantimetrinə görə — 0,02 manat ödəyirlər.~~

[7] 29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.2.1-ci yarımbəndin sonuncu abzasında "**plastik kart**" sözlərindən sonra "**, elektron ödəmə sistemləri**" sözləri əlavə olunmuşdur.

[8] 3 aprel 2013-cü il tarixli **Q9-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 2.6.1-ci yarımbəndin 3-cü hissəsində "**rüsumunun**" sözündən sonra "**ödənilməsi barədə bank və ya poçt qəbzinin əslinin, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarışın, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədin**" sözləri əlavə edilmişdir.

29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.6.1-ci yarımbəndin 3-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş dövlət rüsumunun ödənilməsi barədə bank və ya poçt qəbzinin əslinin, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarışın, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədin və illik yol vergisinin ödənilməsi barədə qəbzin (bilavasitə elektron xidmətin göstərildiyi internet səhifəsində ödənilməsi halı istisna olmaqla) və~~

18 mart 2015-ci il tarixli **Q8-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.6.1-ci yarımbəndin 3-cü hissəsindən "**və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş məbləğdə yol vergisinin**" sözləri çıxarılmışdır.

[9] 29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2.6.1-ci yarımbəndin 4-cü hissəsində "**surətləri**" sözü "**surəti**" sözü ilə əvəz olunmuşdur.

1 iyul 2015-ci il tarixli **Q16-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 2.6.1-ci yarımbəndinin 4-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4) nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsinin skan edilmiş surəti.~~

[10] 29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 3.1-ci bənddə "**Nəqliyyat vasitələrinin**" sözlərindən sonra "**qanunla müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir.

[11] 7 dekabr 2015-ci il tarixli **Q67-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 3.4.1-ci yarımbəndində "**Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və**

**müəssisələrində**" sözləri "**Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında**" sözləri ilə əvəz edilmişdir.

[12] 29 avqust 2013-cü il tarixli **Q31-001-13** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 3.4.2. yarımbəndin 3-cü abzasında "**imtahan-qeydiyyat**" sözləri "**qeydiyyat-imtahan**" sözləri ilə əvəz olunmuşdur.

[13] 7 dekabr 2015-ci il tarixli **Q67-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə "Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 3.5.2-ci yarımbəndində "**Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində**" sözləri "**Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında**" sözləri ilə əvəz edilmişdir.

[14] 9 sentyabr 2015-ci il tarixli **Q30-001-15** nömrəli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Kollegiyasının Qərarı ilə 2 nömrəli əlavə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~***"Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"ə 2 nömrəli əlavəyə***~~

~~**Dövlət xəzinədarlıq orqanlarında olan vergi və rüsumların köçürülməli olduğu xəzinə hesablarının rekvizitləri haqqında**~~

~~**Məlumat**~~

| | ~~Xəzinədarlıq orqanın~~ | | | ~~Bankın~~ | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| ~~S N~~ | ~~Adı~~ | ~~VÖEN-i~~ | ~~Hesablaşma hesabı~~ | ~~Adı~~ | ~~VÖEN-i~~ | ~~Kodu~~ | ~~Müxbir hesabı~~ | ~~SWIFT~~ |
| ~~Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə~~ | | | | | | | | |
| ~~1~~ | ~~Mərkəzi Xəzinadarlıq~~ | ~~0200003621~~ | ~~1232050005944~~ | ~~Mərkəzi Bank Naxçıvan MR İdarəsi~~ | ~~0200087741~~ | ~~502906~~ | ~~AZ88NABZ01451700000000012944~~ | ~~BIK NABZAZ2C~~ |
| ~~2~~ | ~~Naxçıvan şəhər maliyyə şöbəsi~~ | ~~0200004671~~ | ~~32051019443100201500~~ | ~~Kapital Bankın Naxçıvan MR Baş idarəsi~~ | ~~0200001911~~ | ~~200015~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~3~~ | ~~Babək YXO~~ | ~~0300003761~~ | ~~32051019443060201130~~ | ~~Kapital Bankın Babək filialı~~ | ~~0200001911~~ | ~~200305~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~4~~ | ~~Şərur YXO~~ | ~~0700025021~~ | ~~32051019443360201133~~ | ~~Kapital Bankın Şərur filialı~~ | ~~0200001911~~ | ~~200338~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~5~~ | ~~Ordubad YXO~~ | ~~0400003361~~ | ~~32051019443160201143~~ | ~~Kapital Bankın Ordubad filialı~~ | ~~0200001911~~ | ~~200316~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~6~~ | ~~Culfa YXO~~ | ~~0600012141~~ | ~~32051019443260201132~~ | ~~Kapital Bankın Culfa filialı~~ | ~~0200001911~~ | ~~200327~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~7~~ | ~~Şahbuz YXO~~ | ~~0800005821~~ | ~~32051019443460201134~~ | ~~Kapital Bankın Şahbuz filialı~~ | ~~0200001911~~ | ~~200349~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~8~~ | ~~Sədərək YXO~~ | ~~0500009191~~ | ~~32051019443560201135~~ | ~~Kapital Bankın Sədərək filialı~~ | ~~0200001911~~ | ~~200350~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~9~~ | ~~Kəngərli YXO~~ | ~~0900000241~~ | ~~32051019448960201189~~ | ~~Kapital Bankın Kəngərli filialı~~ | ~~0200001911~~ | ~~200899~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~BIK AIIBAZ 2X~~ |
| ~~Xüsusi rejimli vergi xidməti Departamenti və Bakı şəhəri Vergilər Departamenti üzrə~~ | | | | | | | | |
| ~~10~~ | ~~Bakı şəhəri Vergilər Departamenti~~ | ~~1400305751~~ | ~~2117131~~ | ~~Dövlət Xəzinədarlığı Agentliyi~~ | ~~1401555071~~ | ~~210005~~ | ~~AZ41NABZ01360100000000003944~~ | ~~CTREAZ 22~~ |
| ~~2 saylı ƏVİ üzrə~~ | | | | | | | | |
| ~~11~~ | ~~Sumqayıt YXO~~ | ~~2900380561~~ | ~~2116631~~ | ~~Dövlət Xəzinadarlığı Agentliyi~~ | ~~1401555071~~ | ~~210005~~ | ~~AZ41NABZ01360100000000003944~~ | ~~CTREAZ 22~~ |
| ~~12~~ | ~~Abşeron YXO~~ | ~~3100030961~~ | ~~2116831~~ | ~~Dövlət Xəzinadarlığı Agentliyi~~ | ~~1401555071~~ | ~~210005~~ | ~~AZ41NABZ01360100000000003944~~ | ~~CTREAZ 22~~ |
| ~~13~~ | ~~Xızı YXO~~ | ~~7800010811~~ | ~~32051019442400201124~~ | ~~Kapital Bankın Xızı filialı~~ | ~~9900003611~~ | ~~200242~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ2X~~ |
| ~~14~~ | ~~Siyəzən YXO~~ | ~~7100009511~~ | ~~32051019445500201155~~ | ~~Kapital Bankın Siyəzən filialı~~ | ~~9900003611~~ | ~~200554~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ2X~~ |
| ~~15~~ | ~~Qubadlı YXO~~ | ~~4600022691~~ | ~~3205001-02~~ | ~~Turanbank ASC-nin Sumqayıt filialı~~ | ~~1300016391~~ | ~~508212~~ | ~~AZ26NABZ01350100000000027944~~ | ~~TURAAZ22~~ |
| ~~16~~ | ~~Zəngilan YXO~~ | ~~5200019771~~ | ~~33205019449759910324~~ | ~~ABB-nın Binəqədi filialı 3 saylı Xırdalan şöbəsi~~ | ~~9900001881~~ | ~~805982~~ | ~~AZ03NABZ01350100000000002944~~ | ~~IBAZAZ2X~~ |
| ~~17~~ | ~~Şuşa YXO~~ | ~~8600007501~~ | ~~33205019449759902206~~ | ~~ABB-nın Nərimanov filialı~~ | ~~9900001881~~ | ~~805540~~ | ~~AZ03NABZ01350100000000002944~~ | ~~IBAZAZ2X~~ |
| ~~3 saylı ƏVİ üzrə~~ | | | | | | | | |
| ~~18~~ | ~~Quba YXO~~ | ~~4500248461~~ | ~~32051019446500246165~~ | ~~Kapital Bankın Quba filialı~~ | ~~9900003611~~ | ~~200651~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ2X~~ |
| ~~19~~ | ~~Qusar YXO~~ | ~~4700077491~~ | ~~102432050000~~ | ~~Kapital Bankın Qusar filialı~~ | ~~9900003611~~ | ~~200480~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ2X~~ |
| ~~20~~ | ~~Şabran YXO~~ | ~~5000051201~~ | ~~33205019449580043253~~ | ~~ABB-nın Şabran filialı~~ | ~~9900001881~~ | ~~805465~~ | ~~AZ03NABZ01350100000000002944~~ | ~~IBAZAZ2X~~ |
| ~~21~~ | ~~Xaçmaz YXO~~ | ~~7700127931~~ | ~~2114631~~ | ~~Dövlət Xəzinədarlığı Agentliyi~~ | ~~1401555071~~ | ~~210005~~ | ~~AZ41NABZ01360100000000003944~~ | ~~CTREAZ22~~ |
| ~~4 saylı ƏVİ üzrə~~ | | | | | | | | |
| ~~22~~ | ~~Şamaxı YXO~~ | ~~8400082981~~ | ~~2112731~~ | ~~Dövlət Xəzinadarlığı Agentliyi~~ | ~~1401555071~~ | ~~210005~~ | ~~AZ41NABZ01360100000000003944~~ | ~~CTREAZ 22~~ |
| ~~23~~ | ~~Ağsu YXO~~ | ~~3500052631~~ | ~~32051019445400201154~~ | ~~Kapital Bankın Ağsu filialı~~ | ~~9900003611~~ | ~~200543~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ 2X~~ |
| ~~24~~ | ~~Qobustan YXO~~ | ~~4800016471~~ | ~~32051019447200201172~~ | ~~Kapital Bankın Qobustan filialı~~ | ~~9900003611~~ | ~~200725~~ | ~~AZ37NABZ01350100000000001944~~ | ~~AIIBAZ 2X~~ |
| ~~5 saylı ƏVİ üzrə~~ | | | | | | | | |

